

Rahid Ulusel

# Əsarət sivilizasiyası və ya İblisin müqəddəs çiyni

*XXI əsrin aforizmləri*

**(Onuncu hissə)**

İnsan yeganə canlıdır ki, əhliləşdirəndə vəhşiləşir.

* * *

Meymundan aralanmaqdansa, təbiətdən qopduq.

* * *

Gəmidə batanlar qayıqda xilas olurlar.

* * *

Bir savaş meydanı da buradan açılır: inandıqlarınla inandırıldıqların arasında.

* * *

Dünyanın mütəfəkkirləri hətta onun dəlilərindən də azdır.

* * *

Varlığından kainat - kainat ləzzətini alır, həşərat - həşərat ləzzətini.

* * *

Dəvəyə hürgücləri arasındakı məsafə deyil, getdiyi yolun mənzilləri arasındakı məsafə önəmlidir.

* * *

İlanın yediyi dələ ondan belə intiqam alır: soyunub atdığı qabığını yeyir.

* * *

Zürafə xanım biologiya imtahanında: "İnsanlar - təbiətin aşağı pilləsində qalmış canlılardır."

* * *

Ən müqəddəs çiyin - İblisindir: üzərinə götürür bütün bəşəriyyətin anonim fəaliyyətini.

* * *

Dəlixanadan çöldəkilərin ağıllıxanada yaşadıqlarını güman etmək şübhəlidir.

* * *

Fanatlar bəs demədən varırlar - kumirlərinin itini büt edincəyədək.

* * *

Hiyləgər sonda ifşa olunur: çünki getdiyi dolama yolun çıxış nöqtəsinə qayıda bilmir.

* * *

İnsan primatlardan ayrılanda yalnız bunu unudub: onlara "əlvida!" deməyi.

* * *

Vergül cəsarətlənsə, nöqtə olar. Quyruğunu da ehtiyat saxlayar.

* * *

Zəhərli ilanlar zəhərsiz ilanlardan daha faydalıdır.

* * *

Quyruqda sürünənlər arxadan özlərini baş sayır.

* * *

Maska yırtılır. Üzün taxma olduğu görünür... Demə, maskası onun əsil sifəti imiş...

* * *

Başına çıxartdığının sənə üstdən aşağı baxmağına etdiyin təəccüb - səni əzib yastıladıqca heyranlığına çevriləcək.

* * *

Soyuq mətbəx bıçağı qarına soxulanda istilənib xoşallanır və qəflətən anlayır ki, onun iki funksiyası varmış.

* * *

Keçmişindən ayrıla bilməyənlər gələcəyi ilə avtoqəzadakı kimi toqquşur.

* * *

Səfehlik həmişə civə kimi qalxır. Zəka isə okean dalğası kimi.

* * *

Təbiətdə də insan imperializminə qarşı terror edənlər var: ilan, əqrəb, arı, tikan...

* * *

At minilndə, çapılanda və arabaya qoşulanda hələ bir şey anlamır, ərköyünlüklə şıllaq atırdı. Ancaq cidarlanıb nallananda başa düşdü ki, hə, artıq əsarət sivilizasiyası başlayıb...

* * *

Göz yaşları ilə gülüş yaşları bu dünyada ilk dəfə yanaq yamacında rastlaşdılar. Göz güzgüsündə özlərinə baxıb gülümsədilər: "Biz ki əkizlərik..."

* * *

Özünə inanmasan, sən kimi inandıra bilərsən?!

* * *

Bizim ulartı dediyimizə, canavar solo deyir.

* * *

Aforizm - altşüurun gecə qatarı.

* * *

Hansı heyrətamizdir: qanla, yoxsa duetlə bitən duel?!

* * *

Absurd elə zənn edir ki, yarandığı situasiyanın yaraşığıdır.

* * *

Dişlər - ağızda zəncir qıran kəlbətin də ola bilər, sözü həbs edən barmaqlıq da.

* * *

Elə dəhşətli olur bəzən nəticələr, çəkilir onların arxasından səbəblər.

* * *

Həyatın damarlarında axa bilməyən enerji laxtalanır.

* * *

Adamlar nəinki enişdə, hətta yoxuşda da nəyinsə dalınca qaçmağı xoşlayırlar.

* * *

Pulun fantaziyası sonsuzdur: tarixin bütün əfsanələrinin də mirzəsi odur.

* * *

Hər cür təcrübə var, bircə ölüm təcrübəsi yoxdur.

* * *

Sıfır hər hansı bir rəqəmin yanında dayandıqda bilir kim olduğunu.

* * *

Maşın, siqnalları ilə də adamların bir-birini başa düşməsinə kömək edə bilmir.

* * *

"Pul hər şeydir" - deyənlər özünü heç bir şey edir.

* * *

Göz yumduqlarımız, çox keçməz, göz qapaqlarımızı dəlib bəbəklərimizə soxular.

* * *

Ölürsən, - yəni qatar gedə-gedə düşürsən.

* * *

Pəncərə şüşəsindən təkcə baxdıqlarını deyil, həm də onun özündə saxladıqlarını gör.

* * *

Sözünə "Bilirsiniz..." - deyə başlayanların altşüuru qarşı tərəfə sezdirir ki, siz "bilmirsiniz..."

* * *

Ağırlaşma: iç dünyası boş olduqca, çöl dünyasını daha çox doldurmağa can atır insan.

* * *

Cavanlıqda uğursuzluğunuzu - taleyin, yaşlaşdıqda xəstəliyinizi - qocalığın boynuna atmayın.

* * *

İnsanların özündən daha yaxşı dil tapır bəzən - masanın altında söhbət edən ayaqları.

* * *

Sən siqareti yox, siqaret səni çəkir.